# Beynəlxalq müsabiqənin Qran-pri mükafatçısı




Şəkərxanım Cavadzadə 2003-cü ildə Bakıda anadan olub. Paytaxtdakı 87 nömrəli tam orta məktəbin VI sinfində təhsil alır. Bütün fənlərdən yaxşı qiymətlər alan yeniyetmə qız musiqiyə hədsiz maraq göstərir. 5-8 yanvar 2016-cı il tarixlərində Çexiya Respublikasının paytaxtı Praqa şəhərində keçirilən IV Beynəlxalq İncəsənət Festival müsabiqəsində iştirakı istedadlı şagirdin həyatında silinməz izlər qoyub. Çünki o, ilk ən böyük uğuru da həmin müsabiqədə qazanıb. Müsabiqənin təşkilatçıları arasında İsveç Gənclər Musiqi Assosiasiyası, Xalq İncəsənətinin Beynəlxalq təşkilatı və başqa təşkilatlar olub. İştirak edən ölkələr arasında İsveç, Çexiya, Ukrayna, Gürcüstan, Azərbaycan və Rusiyadan 3 yaş qrupu üzrə musiqiçilər öz istedadlarını nümayiş etdiriblər. Bu müsabiqədə ölkəmizi 3 nömrəli Uşaq İncəsənət Məktəbinin fortepiano ixtisası üzrə VI sinif şagirdi Şəkərxanım Cavadzadə təmsil edib. O, öz yaş qrupunda 13 iştirakçı arasında fərqlənərək Qran-pri mükafatına layiq görülüb. Müsabiqədən sonra Çexiya Respublikasındakı Azərbaycan səfirliyi azərbaycanlı iştirakçıları qazandıqları uğurlara görə təbrik edərək onları səfirliyə konsert proqramı ilə çıxış etməyə dəvət edib.

**Hazırladı:**
**Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*